Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycançılıq ideyasının təbliği

# Vətən müharibəsinin yaşayan gündəlik xronikası və azərbaycançı maarifçilik...

**Azərbaycançılıq ideyası xalqımızı birləşdirən ən sarsılmaz bir məfhumdur, dəyərdir. İllər uzunu bu ideyanın, ideologiyanın işığını tutub irəliləmişik, xalq olaraq birliyə nail olmuşuq, birliyimizlə dövlətimizin yanında olmuşuq.**



27 sentyabr 2020-ci il Vətən müharibəsinin ikinci ildönümünü yaşayırıq. İki il bundan əvvəl xalqımızın, dövlətimizin, ordumuzun birliyi, Ali Baş Komandanın əmri ilə Zəfər yürüşünə çıxmışıq.

Xalqımızın birliyi azərbaycançılıq ideologiyasının təzahürü kimi özünü ifadə edib və nə yaxşı ki, xalq olaraq bu gün də birliyimizi qoruyub saxlaya bilirik.

**"Azərbaycançılıq ideyası özündə Azərbaycan xalqını birləşdirən bir məfhumdur"**

Müasir İnkişaf Birliyinin sədri, Yeni Media Qrupun rəhbəri Mübariz Göyüşlü bizimlə söhbətində bildirdi ki, azərbaycançılıq yeni təzahür deyil və o əsrlərdir mövcuddur, xalqımızı birləşdirən dəyər kimi özünü büruzə verir. "Maraqlı məsələyə toxunmusunuz. Azərbaycançılıq Azərbaycan xalqını dövlətimizin ətrafında birləşdirən bir bir dövlətçilik ideologiyadır, mütərəqqi bir ideyadır. Həm Azərbaycan vətəndaşları, həm dünya azərbaycanlıları uzun illərdir ki, bu ideyanın daşıyıcılarına çevriliblər. Azərbaycançılıq ideyası özündə Azərbaycan xalqını birləşdirən birləşdirən bir məfhumdur. Bu, xaricdə yaşayan azərbaycanlıları da, bütün vətəndaşlarımızı da güclü, müstəqil və daha da inkişaf etmiş bir dövlət ətrafında birləşdirən ideologiyaya çevrilib. Bu ideologiya bizim multikultual həyat tərzimizi də tam olaraq özündə əks etdirir. Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsini, müxtəlif dinlərə məxsus olan dini-etnik qrupları azərbaycançılıq ideologiyası öz çətiri altında birləşdirir. Məhz onun ümimmilli ideologiya olmasının nəticəsidir ki, Azərbaycan xalqı bir yumruq şəkilində birləşə bildi, dəmir yumruğa çevirilib düşmənin başını əzdi. Bu azərbaycançılıq ideologiyası bizim üçün yeni bir məsələ deyil, təxminən neçə əsrdir ki, bu ideologiyanın təzahürləri bu və digər formada ortaya çıxıb. Azərbaycan adı coğrafi anlam şəkilindən daha sonra siyasi coğrafiyaya keçib. Bu siyasətdə öz təzahürünü tapıb. 1918-ci ildə Xalq Cumhuriyyətinin yaranması ilə Azərbaycançılıq bir növ siyasi proseslərə gəldi, siyasi şəkil aldı və Azərbaycan dövləti Azərbaycançılıq ideologiyası üzərində meydana gəldi. Xalq Cumhuriyyətinin ömrü qısa olsa da, amma azərbaycançılıq ideyası tamailə oturuşa bildi. Daha sonra biz 1991-ci ildə dövlət müstəqiliyimizi əldə etdikdə bu özünü daha geniş şəkidə ifadə etdi".

O, vurğuladı ki, azərbaycançılıq ümum Azərbaycan ideyasıdır və 1969-cu ildə Azərbaycan rəhbərliyinə gəlmiş ümummilli lider Heydər Əliyev azərbaycançılıq ideyasına güclü nəfəs verdi. O, qeyd etdi ki, Heydər Əliyev hələ sovet dönəmində xalqımızın, dövlətimizin bütövlüyünü təşkil edən ideologiyanın bünövrəsini qoyub.

**"İlk hədəflərimiz Qarabağı, işğalda olan ərazilərimizi azad etmək olub"**

M.Göyüşlü vurğuladı ki, azərbaycançılığın prinsipləri özünü bayrağımızın rənglərində də özünü ifadə edir, burada türk, islam birliyi, müasirlik anlayışı tamamilə bir-biri ilə uzlaşır, xalqımızın birliyini ifadə edir: "Hər üç rəng azərbaycançılıq ideologiyasının tərkibində özünə yer tutub. Bu o deməkdir ki, Azərbaycan dövləti bir türk, müsəlman dövlətidir, bütün digər dini, etnik azlıqlarla bir yerdə bir azərbaycan xalqı formalaşıb. Bu Azərbaycan xalqına məxsus olan Azərbaycan dövləti azərbaycançılığın üzərində mövcuddur. Eyni zamanda da azərbaycançılıq türkçülük ideologiyasını, məfkurəsini qəti şəkildə inkar etmir. Azərbaycan əhalisinin böyük əksəriyyəti türkdür və ona görə də, Azərbaycan dövlətinin Türk millətləri birliyində təmsilçiliyi istiqamətində uzun illər çalışmalar aparılıb və hazırda türk birliyində Azərbaycan ən aparıcı dövlətlərdən biridir. Bu da onu göstərir ki, azərbaycançılıqla türklük vəhdət şəkilində təcəssüm edir, bu ideyadan irəli gələn prinsiplər bizim gündəlik yaşayış tərzinə çevirilib. Biz azərbaycançılıq ideyası, ideologiyası ətrafında birləşərək dövlətimizi inkişaf etdiririk. Bundan sonrakı mərhələdə bizim ideyanın hədəfləri Azərbaycanı güclü bir dövlətə çevirməkdir. Heç şübhəsiz ki, ilk hədəflərimiz Qarabağı, işğalda olan ərazilərimizi azad etmək olub. Təsəvvür edin ki, yalnız Azərbaycan vətəndaşları deyil, xaricdə yaşayan soydaşlarımız da torpaqlarımızın ərazibütövlüyü uğurunda döyüşmək istədiklərini bəyan ediblər. Bu da ondan irəli gəlir ki, azərbaycançılıq, vətən-yurd sevgsi insanlarımızın canına-qanına hopub. Biz xalq olaraq bu ideya ətrafında birləşib torpaqlarımızı azad etdik. Yəni Azərbaycan Ordusu xalqımızın birliyindən güc alıb torpaqlarımızın azadlığı uğrunda mübarizə apardı və XXI əsr tarixinə qalib xalq kimi düşdük. Biz Vətən müharibəsinin ikinci il dönümünü yaşayırıq və bu dövr ərazində xalqımızın birliyi, hımrəyliyi qətiyyən sarılmayıb, əksinə daha da güclənib. Xalqımızın birliyi sayəsində biz indən sonra daha böyük uğurlara imza atacağıq. Əlbəttə, bizim birliyimiz Azərbaycan dövlətini daha da gücləndirəcək".

M.Göyüşlü hesab edir ki, azərbaycançılıqı məktəbi vətənpərvərlər yetişdirib və bu vətənpərvər insanların hər biri bir örnəkdir. Onun fikrincə, indən sonra da azərbaycançılığın təbliğatı davam etməlidir və gənclərin tərbiyəsində onun rolu önə çəkilməlidir.

***İradə SARIYEVA***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur***